"TƏSDİQ EDİRƏM"
Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin rektoru
_____________ professor Ceyran Mahmudova
13 aprel 2026-cı il

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kafedranın məsləhətçi-professoru vəzifəsi haqqında**

# ƏSASNAMƏ

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
Elmi Şurasının 13 aprel 2026-cı il tarixli iclasında
(protokol № 07) qəbul olunub.

Bakı – 2026

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun "Təhsil sisteminin idarə olunması, təhsil subyektlərinin hüquqları, vəzifələri və sosial müdafiəsi" adlı III fəslinin "Təhsilverənlərin hüquq və vəzifələri"nə dair 33-cü maddəsinin 33.2.8 bəndinə, eləcə də ADMİU-da kafedranın məsləhətçi-professor vəzifəsi haqqında 14.09.2016-cı ildə təsdiqlənmiş və 12.09.2019-cu ildə əlavə və dəyişikliklər edilməklə yenilənmiş Əsasnaməyə əsasən tədris, metodiki və elm sahəsində varisliyin təmin edilməsi, gənc elmi-pedaqoji kadrların hazırlanmasında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (bundan sonra ADMİU) yüksək ixtisaslı və çoxillik təcrübəyə malik elmi-pedaqoji kadrlarının potensialından səmərəli istifadə olunması məqsədilə hazırlanmışdır.

1.2. ADMİU-da 2016-cı ildən təsis edilmiş kafedranın məsləhətçi-professoru vəzifəsi üçün qoyulan tələblər bu yeni Əsasnamə ilə müəyyən olunur.

1.3. Məsləhətçi-professor vəzifəsi kafedranın təqdimatı və fakültə Elmi Şurasının vəsatəti ilə ADMİU-nun Elmi Şurasının qərarı əsasında, rektorun əmri ilə ştat cədvəlinə daxil edilir.

1.4. Məsləhətçi-professor ADMİU-da akademik və inzibati vəzifəyə təyin oluna və ya seçilə bilməz.

1.5. Universitetdə məsləhətçi professor vəzifəsi ştatının sayı ali məktəbin professor heyətinin ümumi sayının 1%-dən çox ola bilməz.

## 2. Məsləhətçi-professor vəzifəsinə keçirilmə şərtləri

2.1. Məsləhətçi-professor vəzifəsinə təqaüddə olub yaşı 65-dən yuxarı, minimum 35 il elmi-pedaqoji staja malik, ən azı 10 il ADMİU-da professor vəzifəsində qüsursuz çalışmış, mədəniyyət və incəsənət sahəsində əhəmiyyətli nailiyyətlər qazanmış, respublika və ya beynəlxalq miqyaslı müsabiqə, sərgi, festival, baxış və mükafatların laureatı, qalibi olmuş, elmlər doktoru elmi dərəcəsi və professor elmi adı olan əməkdaşlar keçirilə bilər:

2.2. Məsləhətçi-professor vəzifəsinə keçirilmə rektorun adına ünvanlanan şəxsi ərizə, kafedra müdirinin təqdimatı, fakültə Elmi Şurasının vəsatəti əsasında müsabiqəsiz, ADMİU Elmi Şurasının qərarı və rektorun əmri ilə rəsmiləşdirilir.

2.3. Məsləhətçi-professor ilə əmək müqaviləsi 1 ildən artıq olmayan müddətə bağlanır.

2.4. Məsləhətçi-professorun illik fəaliyyətinə dair hesabatı Elm və yaradıcılıq işləri üzrə prorektorun təqdimatı ilə ADMİU Elmi Şurasının müzakirəsinə çıxarılır.

2.5. Məsləhətçi-professorun əmək müqaviləsinin müddəti Fərdi plana müvafiq elmi və yaradıcılıq fəaliyyəti nəzərə alınaraq, kafedra müdirinin təqdimatı və fakültə Elmi Şurasının vəsatəti əsasında ADMİU Elmi Şurasının qərarı ilə uzadıla bilər.

## 3. Məsləhətçi-professorun vəzifələri

3.1. Məsləhətçi-professorun vəzifə funksiyaları aşağıdakılardır:

- tədris-metodiki vəsaitlərin hazırlanmasında iştirak etmək;
- dissertasiya işlərini yerinə yetirən iddiaçılara rəhbər və ya elmi məsləhətçi olmaq;
- monoqrafiya və elmi məqalələrin, yaradıcılıq işlərinin hazırlanmasında iştirak;
- fəlsəfə və ya elmlər doktoru dissertasiyalarının ilkin müzakirəsində və müdafiəsində, resenzent, opponent, elmi seminar və ya ixtisaslaşdırılmış dissertasiya şurasının üzvü kimi iştirak;
- respublika və ya beynəlxalq miqyaslı elmi və yaradıcılıq tədbirlərində iştirak;
- bakalavriat və magistrantlara məsləhətlər vermək, buraxılış və dissertasiya işlərinə, eləcə də yaradıcılıq layihələrinə (tamaşa, film, rəngkarlıq, qrafika, dizayn və s.) rəhbərlik etmək;
- kafedranın iclaslarında və universitetin ictimai həyatında iştirak etmək.
- qrant proqramlarında və yaradıcılıq layihələrində iştirak.

3.2. Zərurət yaranarsa, məsləhətçi-professorun razılığı ilə ona tədris ili ərzində 50 saat mühazirə və praktik məşğələlər həvalə oluna bilər.

3.3. Məsləhətçi-professor kafedra müdiri ilə razılaşdırılmış, Elm və yaradıcılıq işləri üzrə prorektor tərəfindən təsdiq edilmiş Fərdi plan əsasında işləri yerinə yetirir.

3.4. Məsləhətçi-professor illik fəaliyyətinə dair hesabat təqdim etməlidir.

3.5. Məsləhətçi-professorun əsas iş yeri vəsatət qaldırılan ali təhsil müəssisəsi olmalıdır.

## 4. Əmək haqqının ödənilməsi

4.1. Məsləhətçi-professorun əmək haqqının ödənilməsi əmək müqaviləsi şərtlərinə uyğun olaraq, ADMİU-nun professor-müəllim heyətinin əməyinin ödənilməsinə ekvivalent şəkildə həyata keçirilir.

4.2. Məsləhətçi-professorun məvacibi (aylıq əmək haqqı və əlavələr, digər güzəştlər və imtiyazlar saxlanılmaqla) professor vəzifə maaşının 0,5 mislindən az, 1,0 mislindən çox ola bilməz.

4.3. Müqaviləyə xitam verildikdə qanunvericiliyə müvafiq son haqq-hesab ödənilir.

## 5. Əmək müqaviləsinə xitam verilməsi

5.1. Məsləhətçi-professor bu Əsasnamədə nəzərdə tutlmuş vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirmədikdə ADMİU Elmi Şurasının qərarı ilə onunla bağlanmış əmək müqaviləsinə xitam verilə bilər.